# Əflatun BAXŞƏLİYEV-70



Hörmətli Əflatun müəllim!

Sizi - istedadlı şair və ədəbiyyatşünası 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1953-cü ildə Hacıqabul rayonunun Atbulaq kəndində anadan olmusunuz.

1973-cü ildə Bakıda orta məktəbi bitirib, elə həmin il BDU-nun filologiya fakültəsinə daxil olmusunuz. 1978-ci ildə Universiteti fərqlənmə diplomu ilə başa vurmuş, 1988-ci ildə Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunda namizədlik dissertasiyası müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnmisiniz. 2003-cü ildən Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin əməkdaşısınız. Hazırda aparıcı elmi işçisiniz. 2014-cü ildə "Sabah" nəşriyyatı tərəfindən çap olunan "Nəbi Xəzrinin yaradıcılıq yolu" monoqrafiyanızda şairin yaradıcılıq yolu bütünlüklə işlənmiş, elmi şərhi dolğunluğu ilə əksini tapmışdır. "Səməd Vurğun və Türk xalqları ədəbiyyatı" mövzusunda doktorluq dissertasiyasını yazıb tamamlamısınız. Mətbuat orqanlarında da elmi məqalə və oçerkləriniz dərc olunmuşdur. Bədii yaradıcılığa hələ orta məktəbdə oxuyarkən başlamısınız. 80-ci illərdən etibarən müntəzəm olaraq "Azərbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə, "Azərbaycan gəncləri", "Bakı" və s. qəzetlərdə şeirlərlə çıxış etmisiniz. 1987-ci ildə ilk şeirlər kitabınız - "Könlümün gözəllik əsiri" işıq üzü görmüşdür. 18 şeir kitabınız çap olunmuşdur. "Sevgi qanadlarında", "Ürəyimin səsi", "Vətən oğlu, el qeyrəti", "Qeyrətli oğullar", "Hər insan bir dünyadır", "Sən Allahla ol", "Taleyimin dan yeri", "Sevda qoxulu çiçəklər", "Günəş olmaq istəyirəm", "Qarabağ Azərbaycandır" adlı şeir kitablarınız maraqla qarşılanmışdır. "Qızıl qələm" mükafatının laureatısınız.

Hörmətli Əflatun müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**